| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 26.09.2003 |
| QEYDİYYAT NÖMRƏSİ | 920 |
| ADI | Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin sosial ödənişləri üzrə yaranmış borclarının tənzimlənməsi tədbirləri barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-09-2003, Nəşr nömrəsi: 09, Maddə nömrəsi: 471) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 090.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

## Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin sosial ödənişləri üzrə yaranmış borclarının tənzimlənməsi tədbirləri barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Əhalinin sosial müdafiəsini gücləndirmək, habelə özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinə investisiyaların cəlb edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin sosial ödənişləri üzrə yaranmış borclarının ödənilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci bəndində göstərilən Qaydalara əsasən dövlət müəssisələrinin borclarının ödənilməsi Azərbaycan Respublikasının 2003-cü və 2004-cü illərin dövlət büdcəsində dövlət əmlakının özəlləşdirilməsi prosesində müstəqil maliyyə məsləhətçisinin cəlb edilməsi, özəlləşdirmə ilə bağlı informasiya təminatının təşkili, müəssisələrin özəlləşdirməqabağı sağlamlaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi üçün nəzərdə tutulan vəsait və məcburi dövlət sosial sığorta vəsaiti hesabına həyata keçirilir.[1]

3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Maliyyə Nazirliyi və*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi* bu Fərmanın icrası ilə bağlı zəruri tədbirlər görsünlər.[2]

4. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 sentyabr 2003-cü il
920

Azərbaycan Respublikası Prezidentinin
2003-cü il 26 sentyabr tarixli 920 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin sosial ödənişləri üzrə yaranmış borclarının ödənilməsi

## QAYDALARI

[3]

### I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"na və "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"na uyğun olaraq özəlləşdirməyə açıq elan edilmiş, habelə idarəetməyə verilmiş dövlət müəssisələrinin (bundan sonra - dövlət müəssisələri) sosial ödənişləri üzrə ödənilməmiş borclarının (bundan sonra - borclar) ödənilməsi prosesini tənzimləyir.

1.2. Bu Qaydalar dövlət müəssisələrinin aşağıdakı borclarının ödənilməsinə şamil edilir:

1.2.1. əmək vəzifələrini yerinə yetirərkən bədbəxt hadisə nəticəsində həlak olmuş işçilərin ailələrinə, əmək zədəsi almış və peşə xəstəliyinə tutulmuş işçilərə zərərin əvəzinə görə ödənişlər;

1.2.2. "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq sosial sığorta üzrə aşağıdakı ödənişlər:

1.2.2.1. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq əmək (sosial sığorta) pensiyaları;[4]

1.2.2.2. əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlər;

1.2.2.3. hamiləliyə və doğuma görə müavinətlər;

1.2.2.4. uşağın anadan olmasına görə birdəfəlik müavinətlər;

1.2.2.5. qanunvericiliklə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinətlər;

1.2.2.6. dəfn üçün müavinətlər;

1.2.2.7. sanatoriya-kurort müalicəsi üzrə xərclər.

### II. QAYDALARIN TƏTBİQ DAİRƏSİ

2.1. Bu Qaydalar:

2.1.1. "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" çərçivəsində və "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"na əsasən özəlləşdirilməsi barədə qərar qəbul edilmiş və özəlləşdirilməsi başa çatmamış dövlət müəssisələrinin bu Qaydalar qüvvəyə minənədək yaranmış borclarına;

2.1.2. idarəetməyə verilən dövlət müəssisələrinin onları idarə etmək hüququna dair müqavilə qüvvəyə minənədək yaranmış borclarına şamil edilir.

### III. BORCLARIN MALİYYƏLƏŞDİRİLMƏSİ

3.1. Dövlət müəssisələrinin bu Qaydaların 1.2.1-ci bəndində göstərilən borclarının maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının 2003-cü və 2004-cü illər üçün dövlət büdcəsində dövlət əmlakının özəlləşdirilməsi prosesində müstəqil maliyyə məsləhətçisinin cəlb edilməsi, özəlləşdirmə ilə bağlı informasiya təminatının təşkili, müəssisələrin özəlləşdirməqabağı sağlamlaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi üçün nəzərdə tutulan vəsaiti Azərbaycan Respublikasının *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin* hesabına köçürür.[5]

3.2. Azərbaycan Respublikasının*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi* bu Qaydaların 1.2.1-ci bəndində göstərilən borcları bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulan vəsait, 1.2.2-ci bəndində göstərilən borcları isə məcburi dövlət sosial

sığorta vəsaiti hesabına müəyyən olunmuş qaydada maliyyələşdirir.

## IV. BORCLARIN ÖDƏNİLMƏSİ QAYDALARI

4.1. Borclar Azərbaycan Respublikasının *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun* yerli orqanları ilə dövlət müəssisələri arasında tərtib edilmiş üzləşmə aktlarına əsasən ödənilir.[6]

Bu məqsədlə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi dövlət müəssisələrinin siyahısını Azərbaycan Respublikasının *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə* təqdim edir.[7]

4.2. Dövlət müəssisələri Azərbaycan Respublikasının *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun* yerli orqanları ilə birlikdə bir ay müddətində borcun məbləği barədə üzləşmə aktları tərtib edirlər.

Tərtib olunmuş üzləşmə aktlarına əsasən Azərbaycan Respublikasının *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun* yerli orqanları tələb olunan vəsaiti on beş bank günü ərzində dövlət müəssisələrinin hesabına köçürürlər.

Dövlət müəssisələri həmin vəsait hesabına borcların bilavasilə ödənişini həyata keçirirlər.

4.3. Dövlət müəssisələri borcları ödədikdən sonra yeddi gün müddətində Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə və Azərbaycan Respublikasının *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə* hesabat təqdim edirlər.[8]

4.4. Bu Qaydaların 4.3-cü bəndində göstərilən hesabat təqdim edildikdən sonra borcların ödənilməsi barədə yaranan hər hansı mübahisəyə görə məsuliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada hesabatı təqdim etmiş dövlət müəssisəsi daşıyır.

## V. MƏSULİYYƏT

Bu Qaydaların pozulmasına görə təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**)
2. 19 fevral 2007-ci il tarixli 531 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 97**)
3. 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)**
4. 6 sentyabr 2016-cı il tarixli **1027** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 07 sentyabr 2016-cı il, 196 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1464)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə 2-ci bənddə "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

[2] 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə 3-cü bənddə "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141,Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)** ilə 2-ci və 3-cü bəndlərində "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ismin müvafiq hallarında "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

6 sentyabr 2016-cı il tarixli **1027** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 07 sentyabr 2016-cı il, 196 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1464)** ilə 3-cü hissədə "**Dövlət Sosial Müdafiə Fondu**" sözləri "**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[3] 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141,Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)** ilə "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin sosial ödənişləri üzrə yaranmış borclarının ödənilməsi Qaydaları"nın 3.1-ci, 4.1-ci və 4.3-cü bəndlərində ismin müvafiq hallarında "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ismin müvafiq hallarında "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

[4] 19 fevral 2007-ci il tarixli **531** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 97**) ilə 1.2.2.1-ci yarımbəndində "**Vətəndaşların pensiya təminatı haqqında**" sözləri "**Əmək pensiyaları haqqında**" sözləri ilə əvəz edilmişdir.

[5] 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin sosial ödənişləri üzrə yaranmış borclarının ödənilməsi Qaydaları"nın 3.1-ci bənddə "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

6 sentyabr 2016-cı il tarixli **1027** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 07 sentyabr 2016-cı il, 196 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 146 4)** ilə "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin sosial ödənişləri üzrə yaranmış borclarının ödənilməsi Qaydaları"nın 3.1-ci və 3.2-ci bəndlərdə, 4.1-ci bəndin ikinci abzasında və 4.3-cü bənddə ismin müvafiq hallarında "**Dövlət Sosial Müdafiə Fondu**" sözləri ismin müvafiq hallarında "**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[6] 6 sentyabr 2016-cı il tarixli **1027** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 07 sentyabr 2016-cı il, 196 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 146 4)** ilə "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin sosial ödənişləri üzrə yaranmış borclarının ödənilməsi Qaydaları"nın 4.1-ci bəndin birinci abzasında, 4.2-ci bəndin birinci və ikinci abzaslarında "**Dövlət Sosial Müdafiə Fondunun**" sözləri "**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun**" sözləri ilə əvəz edilmişdir.

[7] 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin sosial ödənişləri üzrə yaranmış borclarının ödənilməsi Qaydaları"nın 4.1-ci bənddə "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

[8] 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin sosial ödənişləri üzrə yaranmış borclarının ödənilməsi Qaydaları"nın 4.3-cü bənddə "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.